# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN MƏKTƏB YAŞLI UŞAQLARIN SOSİAL ADAPTASİYA VƏ İNTEQRASİYA ÇƏTİNLİKLƏRİNİN TƏYİN EDİLMƏSİ

**Aygün Səfərəliyeva**,
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: defektolog_87@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* T.S. Paşayev,
*ped.ü.fəls.dok., dos.* N.Ş. Muradova

***Açar sözlər:*** *sosial adaptasiya, dezadaptasiya, inteqrasiya, inkişaf, davranış*
***Ключевые слова:*** *социальная адаптация, дезадаптация, интеграция, развитие, поведение*
***Key words:*** *social adaptation, disadaptation, integration, development, behavior*

**Məqalənin aktuallığı.** "Məktəbə hazır olma", "məktəb həyatına uyğunlaşma", "məktəb yaşına yetkinlik" kimi anlayışlar psixologiya və pedaqogika elmlərində uşağın psixi inkişaf səviyyəsi və onun ətraf mühitə sosial adaptasiyası zamanı istifadə edilir. Kiçik məktəb yaş dövrü uşağın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Məlumdur ki, məktəbəqədər yaş dövrü, yəni "oyun dövründən" "təlim dövrünə" keçid uşağın aparıcı fəaliyyət növlərinin dəyişdirilməsi ilə yanaşı həmçinin, uşağın ətraf aləmə fərqli münasibəti və onun sosial adaptasiyası ilə xarakterizə olunur (4).

Bu göstəricilər xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların uşağın sosial adaptasiyası üçün lazım olan xüsusiyyətlərdir və onlar uşaqda ani olaraq yaranmır. Bu göstəricilər mütəxəssisin yardımı ilə uşağın ibtidai təlim dövrü boyunca formalaşır. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiyası, onların müstəqil və düşüncəli fəaliyyəti, əqli-yaradıcı əməyi daha çox kiçik məktəb yaş dövründə korreksiya tədbirləri vasitəsi ilə inkişaf etdirilir. Əgər xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiyası uğurla keçərsə bu zaman uşaq əməyi sevən və ondan böyük həzz alan, biliklərə dəyər verən şəxsə çevriləcək.

**Məqalənin praktik əhəmiyyəti.** Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiyası adətən aşağıdakı çətinliklərdən ibarət olur:

1. Uşaq ona verilən tapşırıqda çətinliyin nədən ibarət olduğunu, məsələnin həlli planını və alınmış nəticəni qeyd edə bilmir;
2. Öyrənilən material əsasında xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaq sual verə bilmir;
3. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaq dərs prosesində, mövzuya uyğun olaraq axtarış etmir, düşüncələrini gərginləşdirə bilmir və aktiv şagirdlərlə mövzuya uyğun olaraq mübahisəyə girmir(1, 2);
4. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaq dərs prosesində uğura emosional reaksiya vermir, öz işinə nəzarət edə bilmir;
5. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial kontaktları məktəb yaş dövründə hələ formalaşmamış olur;
6. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqlarda əmək təlimi və əmək təliminə tələb formalaşmır;
7. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların həmişə himayə altında olması, həyatın maddi tərəflərini və öz mülkiyyətini anlamır;
8. Özünü fərd kimi anlamır və bu da özünü qiymətləndirmədə əks olunur;
9. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaq müstəqil həyat bacarıqlarına yiyələnə bilmir;
10. Ünsiyyət tələbatının, ətraf mühitin əşya və hadisələr haqqında təsəvvürlərin azlıq təşkil etməsi ilə müşayiət olunan dezadaptasiya formalı davranış, konfliktlərdə əks olunur.

Yuxarıda göstərilən xüsusiyyətlər konkret şagird haqqında olan məlumat deyil. Bu göstəricilər təlim zamanı xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın inkişafında və sosial adaptasiyasında olan çatışmazlıqlara mütəxəssislərin diqqət yetirməsi üçün bir siqnaldır(5).

Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiya və inteqrasiya çətinlikləri üzrə apardığımız tədqiqat prosesində biz Bakı şəhərində bir çox inklüziv tipli məktəblərdə (200, 27, 138) olduq. Apardığımız müşahidələr əsasında xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiya və inteqrasiyası çətinliklərini aşkar etmək üçün hər bir uşağa aid edilən diaqnostika üsulundan istifadə etdik. Mütəxəssislər, valideynlər, müəllimlər aşağıda təqdim olunan diaqnostika cədvəlindən səmərəli istifadə edə bilər.

Cədvəl I

| Uşağın adı, soy adı. | Doğum tarixi | Diaqnostikanın keçirildiyi tarıx | |
|---|---|---|---|
| № | Sosial adaptasiya və inteqrasiya zidd olan davranış | Təsdiq etmə | |
| | | Hə | Yox |
| 1. | Ürkək halda ətrafa göz gəzdirir | | |
| 2. | Onu məzəmmət etdikdən sonra yenə öz işinə davam edir | | |
| 3. | Hövsələsizdir, aramsız qışqırır, danışanın sözünü kəsir | | |
| 4. | Qrup tədbirlərinə qoşulmur | | |
| 5. | Xoşa gəlməyən xarici görünüşü | | |
| 6. | Öz həmyaşıdları ilə vuruşur, onları dişləyir | | |
| 7. | İnstruksiyalara uyğun hərəkət etmir, xahişləri yerinə yetirmir | | |
| 8. | Başladığı mübahisəni dayandıra bilmir, çətinliklə razılaşır | | |
| 9. | Başladığı işi sona çatdıra bilmir | | |
| 10. | Özünə qarşı həmişə diqqət tələb edir | | |
| 11. | Səliqə-sahman saxlamaq imkanı olmur | | |
| 12. | Yaşıdlarını pis sözlərlə söyür, özündən böyüklərə kobudluq edir. | | |
| 13. | Danışıq səsi çox asta, cavabları ləng olur | | |
| 14. | Həmyaşıdları ilə konfliktlər yaradır, onlarla vuruşur | | |
| 15. | Əhval-ruhiyyəsi tez-tez dəyişir | | |
| 16. | Özünü kloun kimi aparır | | |
| 17. | Ləng hərəkət etdiyi üçün hər yana gecikir | | |
| 18. | Həmyaşıdlarına ara-sıra sataşır və onlarda özünə qarşı aqressiv davranış yaradır | | |
| 19. | Təşəbbüs göstərmir, passivdir, maraq göstərmədiyi üçün suallar vermir | | |
| 20. | Küsəyəndir, gözləri tez yaşarır | | |
| 21. | Çox və tez danışandır | | |
| 22. | Digər uşaqlara əmr etməyi, onları özünə tabe etməyi sevir | | |
| 23. | Verdiyi sözün üstündə durmur, ona tapşırılan işi yaddan çıxarır | | |
| 24. | Qıcıqlanan zaman ətrafdakı uşaqlara, böyüklərə tüpürür | | |
| 25. | Özünə inamı, güvəni olmur | | |
| 26. | Öz səhvlərini çətinliklə anlayır | | |
| 27. | Hərəkətləri çox narahatdır, aramsız olaraq fırlanır, əl və ayaqlarını yersiz fırladır | | |
| 28. | Məğlubiyyəti çox çətinliklə qəbul edir | | |
| 29. | Bilə-bilə davranış qaydalarını unudur | | |
| 30. | Acığa çox pis hərəkətlər etməyə başlayır | | |
| 31. | Kollektiv oyun və tapşırıqlardan uzaqlaşır | | |
| 32. | Öz uğursuzluğunda digərlərini günahlandırır | | |

| | | | |
|---|---|---|---|
| 33. | Bir yerdə qərar tuta bilmir | | |
| 34. | Özünü öyməyi çox sevir | | |
| 35. | Qoyulmuş qaydaları təkzib edir: Bir qaydaya riayət etdiyi halda, digərini pozur | | |
| 36. | Təlim ləvazimatlarını sındırır, atır, dağıdır | | |
| 37. | Oyunda baş rolları götürmək istəmir | | |
| 38. | Hər bir şeyi öz kaprizləri ilə əldə etmək istəyir | | |
| 39. | Həmişə yayınır | | |
| 40. | Kompromislərə getmir | | |
| 41 | Məqsədyönlü olaraq, daima qaydaları pozur | | |
| 42. | Həmyaşıdlarına qarşı güc tətbiq edir | | |

Cədvəl 2

| Uşağın adı, soy adı | Yaşı | Diaqnostikanın keçirildiyi tarix |
|---|---|---|
| Uşağın davranışının xüsusiyyəti | Davranış xüsusiyyətinin nömrəsi | Bal |
| Konform tip | | |
| Protest tip | | |
| İmpulsiv tip | | |
| Nümayişkar tip | | |
| İntizamsız tip | | |
| Aqressiv tip | | |

Bu cədvəlin sol tərəfində uşağa aid göstərilən hər bir xüsusiyyətin qarşısında işarə qoyulmalıdır. Əgər verilən altı sosial dezadaptasiyaya uyğun davranış tiplərindən dörd və daha çox xüsusiyyət qeyd olunursa bu zaman nəticə 12-21 bal təşkil edir ki, bunun əsasında həmin uşağı 3 cədvəlin sol sütununa qeyd etmək olar.

Əks halda, yəni, əgər altı sosial dezadaptasiyaya uyğun davranış tiplərindən üç və daha az xüsusiyyət qeyd olunarsa nəticə 1- 9 bal təşkil edərək həmin uşaq sosial dezadaptasiyaya uyğun olmaması müəyyən edilir.

Növbəti addım böyükləri daha çox narahat edən bir sualın cavabının tapılmasına yönəldilmişdir. Yəni, xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial dezadaptasiyasını aradan qaldırmaq üçün tədbirlərin görülməsi vacib sayıla bilərmi? Əgər tədbirlər görülməzsə xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaq özü müstəqil olaraq ətraf mühitə sosial adaptasiya və inteqrasiya oluna bilərmi? Müraciət etdiyimiz ədəbiyyata və praktik insanların göstərişlərinə istinad edərək müəyyən etdik ki, belə hallarda sosial dezadaptasiya nəinki yox, əksinə daha da möhkəmlənmiş olur(3). Tədqiqat zamanı səhv etməmək üçün altı sosial dezadaptasiyaya uyğun davranış tiplərinə aid olan uşaqları aşağıdakı meyarlar ilə qiymətləndirdik:

- Sosial dezadaptasiyalı davranışın tezliyi;
- Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın davranış repertuarında sosial dezadaptasiyalı davranışın olma müddəti;
- Sosial dezadaptasiyalı davranışın ağırlıq səviyyəsi;
- Sosial dezadaptasiyalı davranışın situasiyalı spesifikliliyi.

Sosial dezadaptasiyalı davranışın tezliyi dedikdə müəyyən zaman çərçivəsində uşağın nə qədər asosial davranışa müraciət etməsi bildirilir. Hər bir konkret halda asosial davranış tezliyi müxtəlif ola bilər. Obyektivlik üçün aşağıdakı sıralamaya müraciət etdik:

- Gün ərzində bir neçə dəfə - 5 bal;
- Gün ərzində bir dəfə - 4 Gün ərzində bir neçə dəfə - 5 bal;
- Həftə ərzində bir neçə dəfə -3 bal;
- Həftə ərzində bir dəfə - 2
- Ay ərzində bir dəfə - 1 bal

*Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşaqların sosial adaptasiya və inteqrasiya çətinliklərinin təyin edilməsi*

Cədvəl 3

| Uşağın adı, soy adı | Yaşı | | Diaqnostikanın keçirildiyi tarix | |
|---|---|---|---|---|
| Dezadaptasiyalı davranışın növü | Qiymət meyarları | | | |
| | Tezlik | Müddət | Dərəcə | Situasiyanın spesifikliliyi |
| | | | | |
| | | | | |
| | | | | |

3 Cədvəlin "Tezlik" qrafasında uyğun ballar qeyd olunur. Müddət qrafası zaman meyarını və xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın davranış repertuarında asosial dezadaptasiya hallarının olmasını göstərir.

- 1 il və daha çox - 5bal
- 6 ayda - 4 bal
- 2-3 ay - 3 bal
- 3-4 həftə - 2 bal
- Bir neçə gün - 1 bal

3 Cədvəlin "Müddət" qrafasında isə uyğun ballar qeyd olunur.

Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışı nə dərəcədə onun ümumi psixi inkişafına neqativ təsir göstərəcəyini ağırlıq dərəcəsi təyin edəcək. Nəticədə arzuolunmaz hallar, yəni:

- Dərs prosesində psixi funksiyaların məhsuldarlığı enəcək;
- Şəxsiyyət strukturunda və xarakterin xüsusiyyətlərində neqativ hallar yaranacaq;
- Fiziki olaraq əhval-ruhiyyə aşağı enəcək;
- Həmyaşıdları ilə kontakta girə bilməyəcək;
- Böyüklər ilə qarşılıqlı münasibətlər pozulacaq.

Hər parametr bir bal ilə qiymətləndirilir. Yekun bal (1-5 qədər) 3 Cədvəlin "Dərəcə" qrafasında qeyd olunur. Təbii ki, nə qədər bal yüksək olarsa,

xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial adaptasiyası daha da çətinləşəcək.

Qiymətləndirmənin növbəti meyarı situasiyanın spesifikliliyidir. Xüsusi ədəbiyyatda qeyd olunur ki, əgər xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial adaptasiyasındakı çətinlik müəyyən şəraitdə konkret situasiya ilə təhrik olunubsa bu zaman yaranan neqativ simptomun həyəcanı yüksək deyil. Bu səbəbdən xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial adaptasiyasına mane olan neqativ halı aşağıdakı, kimi dəyərləndirmək olar:

- Situasiyadan asılı olmayan sosial dezadaptasiyalı davranış - 5 bal;
- Neqativ situasiyalara oxşar olan sosial dezadaptasiyalı davranış - 3 bal;
- Eyni situasiyalarda yaranan sosial dezadaptasiyalı davranış - 1 bal.

3 Cədvəlin "Situasiyanın spesifikliliyi" qrafasında isə uyğun ballar qeyd olunur.

3 Cədvəldə balları qeyd etdikdən sonra, biz yuxarıda qeyd olunan meyarları analiz etdik və yekun balları hesablayaraq aşağıdakı nəticəyə gəldik.

1. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışı 15-20 balı keçən zaman korreksiya tədbirlərini dərhal başlanmasını məsləhət gördük.
2. Əgər xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışı 10-14 balı əhatə edərsə, onu "risk qrupuna" daxil olunması məsləhət görüldü. Çünki müvafiq tədbirlər görülməsə xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışı daha da dərinləşəcək.
3. Xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışı 4-9 olarsa bu zaman uşağın neqativ davranışı müvəqqəti xarakterə malik olması bildirilir.

**Problemin elmi yeniliyi.** Apardığımız tədqiqatın nəticələrinə görə müəyyən olundu ki, xüsusi qayğıya ehtiyacı olan məktəb yaşlı uşağın sosial dezadaptasiyalı davranışını aradan qaldıraraq onu sosiuma inteqrasiya etmək üçün ilk növbədə uşağa psixoloji komfort şəraiti yaratmaq və onun sosial adaptasiya və sosial inteqrasiya prosesinin dinamikasını müşahidə etmək lazımdır.

## ƏDƏBİYYAT

1. Məmmədova M.Ə. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla psixokorreksiya işinin təşkili: Metodik vəsait. Bakı, 2016.

2. Məmmədova M.Ə. Hiperaktiv uşaqlarda diqqətin pozulması: Dərs vəsaiti. Bakı: ADPU-nun nəşri, 2017.

3. Вайнер М.Э. Игровые технологии коррекции поведения дошкольников. Педагогическое общество России. М.: М., 2004.

4. Практическая психология образования: Учеб. пособие / Под ред. И.В. Дубровиной СПб.: Питер, 2009.

5. Психология детей с задержкой психического развития / Составитель О.В. Защиринская. Хрестоматия: Учебное пособие для студентов факультетов психологии. СПб.: Речь, 2004.

**А. Сафаралиева**

## ОПРЕДЕЛЕНИЕ ТРУДНОСТЕЙ СОЦИАЛЬНОЙ АДАПТАЦИИ И ИНТЕГРАЦИИ ДЕТЕЙ ШКОЛЬНОГО ВОЗРАСТА С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ

### *РЕЗЮМЕ*

В статье освещено исследование социальной адаптации и интеграции, независимой и умственной деятельности детей школьного возраста с ограниченными возможностями. Развитие умственно-творческой деятельности показано больше с помощью коррекционных мероприятий для социальной адаптации и интеграции вышеуказанных детей. Для устранения у ребенка школьного возраста с ограниченными возможностями социально-дезадаптационного поведения и интегрирования его в социум в первую очередь предлагается создание для него психологически комфортных условий.

**A. Safaraliyeva**

## DETERMINING DIFFICULTIES OF SOCIAL ADAPTATION AND INTEGRATION OF SCHOOL-AGED CHILDREN WITH DISABILITIES

### *SUMMARY*

The study of social adaptation and integration, independent and intellectual activity of school-aged children with disabilities is highlighted in the article. The development of intellectual and creative activity is shown to a greater extent with the help of corrective measures for social adaptation and integration of children with the above-mentioned problems. It is proposed to create psychologically comfortable conditions for the school-aged children with disabilities to eliminate social and disadaptive behavior and integrate them into the society.

**Redaksiyaya daxil olub:** 06.02.2018